**Pərakəndə ticarət dövriyyəsi haqqında**

2022-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 22,5 milyard manatlıq, o cümlədən 12,6 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 9,9 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2021-ci ilin yanvar-iyun ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 2,9 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,3 faiz, qeyri-ərzaq malları üzrə 3,6 faiz artmışdır.

Hesabat dövründə əmtəə bazarı aşağıdakı göstəricilərlə xarakterizə olunmuşdur:

| Məhsul qruplarının adları | Satışdan gəlir, milyon manatla | 2021-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | 22 520,3 | 102,9 |
| *o cümlədən:* | | |
| ərzaq məhsulları | 11 524,6 | 102,5 |
| içkilər və tütün məmulatları | 1 111,0 | 100,2 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 2 854,1 | 100,2 |
| elektrik malları və mebellər | 1 083,9 | 100,7 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 244,6 | 157,9 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 553,2 | 126,1 |
| avtomobil benzini və dizel yanacağı | 1 295,2 | 108,6 |
| digər qeyri-ərzaq malları | 3 853,7 | 100,3 |

2022-ci ilin yanvar-iyun aylarında alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 51,2 faizi ərzaq məhsullarının, 4,9 faizi içkilər və tütün məmulatlarının, 12,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,7 faizi avtomobil benzini və dizel yanacağının, 4,8 faizi elektrik malları və mebellərin, 2,5 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,1 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

**2022-ci ilin yanvar-iyun aylarında**
**pərakəndə ticarət dövriyyəsinin strukturu**




*ərzaq məhsulları (51,2%)*
*içkilər və tütün məmulatları (4,9%)*
*toxuculuq məhsulları, geyim və ayaqqabılar (12,7%)*
*elektrik malları və mebellər (4,8%)*
*kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları (1,1%)*
*əczaçılıq məhsulları və tibbi ləvazimatlar (2,5%)*
*avtomobil benzini və dizel yanacağı (5,7%)*
*digər qeyri-ərzaq malları (17,1%)*

2022-ci ilin yanvar-iyun aylarında qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 2,9 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil etmişdir.

2021-ci ilin yanvar-iyun ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 6,0 faiz, bazar və yarmarkalarda 7,5 faiz artmış, fərdi sahibkarlar üzrə isə 1,0 faiz azalmışdır.

Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 373,5 manatlıq, o cümlədən 209,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 163,9 manatlıq qeyri-ərzaq malları almışdır.

*Əlaqə telefonu: 377 10 70 (22-60)*